# "MİN ƏZABA ÇATA-ÇATA YAŞADIM"

Ədəbiyyatşünaslığımızda XXI əsrin mövcud şeir təmayülləri haqqında müxtəlif düşüncəli və səciyyəli çoxlu sayda araşdırmalar yazılır. Həmin tədqiqatların ən mühüm hissəsini realist şeirin, maarifçi, didaktik, bəzən yumorlu, satirik təmayülü barədə əsərlər təşkil edir. Nəcməddin Mürvətovun indiyədək nəşr olunan 20 kitabının 15-i məhz şairin poeziya aləmində necə cövlan etməsindən yox, min əzaba çataçata yaşayaraq yazmasından xəbər verir. Onun poeziyasının irili-xırdalı bütün əhatə dairəsinin yüksəlişi, bu poetik nümunələrin strukturunda və mətnində gedən estetik təkamülü, vaxt ölçüsü ilə çox da böyük olmayan bir dövrdə, qırx yaşından sonra yazmışdır. Bütövlükdə poetik dünyası Azərbaycan ədəbiyyatının ədəbi fikrin məfkurəvi və bədii cəhətdən müxtəlif istiqamətlərdə inkişafını aydınlaşdırmaqda mühüm əhəmiyyət kəsb edir. Region yazarlarının biri olan şair (Siyəzən) Nəcməddinin ötən dövr ərzində nəşr olunan kitabları poeziyamızın tərəqqisində xidmətləri artıq bu gün tarixilik prinsipi ilə qiymətləndirilməlidir.

Ədəbiyyat adamlarının hər bir tədbiri yazıçışairin hesabatıdır. Fərq etməz kitab təqdimatı, illik hesabatı, yoxsa ad günü. 65 illik ömür fəaliyyəti və rəngarəng poetik nümunələri ilə ədəbi ictimaiyyət qarşısında hesabata gəlmişdi. Düşüncəmə görə, bu yubileyi ilə Nəcməddin müəllim zaman qarşısında hesabat verirdi.

Nəcməddin Mürvətov poeziyasını xeyli illərdir ki, oxuyuram. Və 2018-ci ildə nəşr olunan, "Səmimiyyət istəyirəm" poeziya çələngini mənə avtoqrafla ötən baharda göndərmişdi. Oxudum, zövq aldım, duyğulandım. Şeirləri qəlbimə də, beynimə də sığal çəkdi. Çünki son illərin poeziyasını oxuyanda, tənqidi fikirlərlə tanış olanda qəribə deyim, yoxsa düşüncəli vəziyyətlə rastlaşırsan: poetik nümunənin özü ilə şeir haqqında deyilən söz arasında ciddi namütənasiblik görürsən. Nəcməddin Mürvətovun şeirləri haqqında fikir deyən tənqidçilərimizlə poeziyasının mətni arasında uyğunsuzluqlar görünmədi. Şairin yaradıcılığının ədəbi mənzərəsi ilk növbədə dövri mətbuatın səhifələrində əksini tapıbdır. Nəcməddin Mürvətovun nəşr olunan 15 kitabın və bu kitablarda toplanmış şeir, poema, qəzəl, düşüncələr onun ömür payının, fərəhli-fərəhsiz, acılı-şirinli hadisələridir. Hadisə ola biləcək bu poetik nümunələr isə deməyə əsas verir ki, Nəcməddin poeziyası həyatda duruş gətirib qalacaqdır. Bu kiçicik məkan – şairin vətəni qəribə, hər kəsə müəssər olmayan bir məkanda qərar tutubdur. Bir tərəfi Xızı dağları, bir tərəfi də göy Xəzər dənizi. Bu torpaq Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Cabir Novruz kimi görkəmli sənətkarlar yetişdirib. Deyə bilərik ki, ustadlarının yolunun Nəcməddin Mürvətov inamla, uğurla, zəhmətlə, bir də istedadla bu gün davam etdirir. Çoxdan yanan ocağı sönməyə qoymur.

Ədəbi cameədə istedadlı şair, nasir, söz sərrafı, publisist kimi tanınan Əli Rza Xələfli "kənd övladı"nın (prof. Vaqif Yusifli) poeziyası haqqında 9 tənqidi məqalə yazmış və bir kitabının ("Dağdan dənizə doğru", Bakı, 2018) tərtibçi-müəllifi olubdur. Əli Rza Xələfli yazır: "Nəcməddin Mürvətovun poeziyası insanı ucalığa çağırmaq missiyası daşıyır". N.Mürvətovun poeziya dünyası, pedaqoji fəaliyyəti, İnsani – məfkurəvi dəyərləri tanınmış ziyalı – tənqidçilərimiz tərəfindən mütəmadi qiymətləndirilmişdir (İlyas tapdıq, Sadıq Elcanlı, Musa Ələkbərli, professorlar Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Məmmədəli Mustafayev, Qurban Bayramov, Nizami Tağısoy, dosent Şakir Əlifoğlu və s.).

Şair nəşr olunan kitablarına elə sərlövhələr seçib ki, ilk baxışda fəhmli oxucu diqqətindən yayınmır. "İlk sözüm" (1997), "Etiraf" (2001), "Varımdövlətim" (2003), "Dünyamıza sözüm var" (2005), "Həqiqət axtarıram" (2006), "Yaxşılar azalmasın" (2008), "Nə verdim ki, dünyaya" (2014), "Səsim, ünüm, harayım" (2015), "Şairdə sirr olmur" və s. Professor Vaqif Yusfli yazır: "Nəcməddin Mürvətovun sevgi şeirlərində yaşayan, ölməyən, illər keçdikcə xatırlanan və xatırlandıqca daha da şiddətlənən sevgidən söhbət gedir... sevgi şeirlərində olduğu kimi, qəzəllərində də səmimi hisslər, təbii duyğular diqqəti cəlb edir".

Şairin poeziyasının ana xəttindən bir qırmızı işıq seli keçir. Bu rənglər içində canını dünyaya, vətəninə, millətinə, elinə, torpağına, onun hər bir kiçik fidanına borclu sayan İnsan görürük. Belə səmimi şeirlərin birinin mətninə müraciət edək:

*Cisim verib, nəfəs verib, can verib,*
*Yaşamağa bir ömürlük an verib*
*Öz lütfüylə azca şöhrət-şan verib,*
*Şərik edib sevincimə, dərdimə,*
*Nə verdim ki, mən dünyaya, umam nə?*

N.Mürvətovun şeirlərində mikromühitdə – həyatda, makromühitdə – dünyada neqativ hallarla barışmazlıq, hiddətli etiraz motivləri də, həsrət və kədər, Qarabağ nisgili də vardır. Ana mövzusu, sevgi şeirləri, dostlara – qələm yoldaşlarına ithaflar da özünəməxsusluqları ilə seçilir və düşünülərək oxunur.

Nəcməddin şeirlərinin nüvəsini lirik qəhrəmanının qarşısında həyatın və bəşərin olduqca mürəkkəb, çətin əxlaqi-mənəvi problemləri dayanır və maraqlısı budur ki, Xızı dağlarına arxa çevirən şair sözügedən problemlərin önündə müti qul kimi dayanmır, pessimist olmur, olanları və olacaqların aydınlar kimi dərkinə can atır. Bu misralarda lirik qəhrəmanın daxili enerjisinin aktivliyi ilə qarşılaşırıq.

Pedaqoqluğu vətənpərvərlik mövzusunda yazdığı poetik nümunələrdə aydın hiss olunur. Belə yaradıcılıq potensialı olmasına baxmayaraq, doğma Ələz kəndi ilə nəfəs aldığından mərkəz şəhərə yaxın olmasına baxmayaraq, yurd vurğunluğu, torpağa dəlicəsinə bağlılıq şairi kənddən uzaqlaşmağa qoymayıbdır. Səyavuş Sətxanlı demişkən "Dədə-baba yurdu mənəvi qibləsi" olubdur.

*Görüşünə gəlmişəm bax,*
*Quc, qucaqla məni, Ələz.*
*Ürəyimə, qəlbimə ax,*
*Qov dumanı, çəni, Ələz.*

Yaradıcı insanlar bilirlər ki, şeir ağrıdan da yaranır, sevincdən də, sadəcə ağrıyla yanaşı sevinci də poetikləşdirmək bircə əzablı-sitəmli yaşanmanı deyil, həm də əzablı yazı prosesini tələb edir. Nəcməddin də belə yazır, mövzular onu daxilən narahat edir, tərpədir və ilhamlandırır. Onun şeirlərində təqdim və tərənnüm olunan ideyalar gərəklidir, aktualdır, tərbiyəvi, idrakı təsir gücünə malikdir.

"Yaşadım" şeirində özünün şair ömrünün necə yaşadığını belə təsvir edir:

*Burulğanlı həyatımda çox zaman,*
*Ömrü əl-qol ata-ata yaşadım.*
*Az sevindim, olub tez-tez peşiman,*
*Boğularaq bata-bata yaşadım*
*Öz payını halal aldı uğurum,*
*Çoxlarını xofa saldı uğurum.*
*Əvvəl-əvvəl bir xəyaldı uğurum*
*Min əzaba çata-çata yaşadım.*

Bu misraları, təbii ki, oxşar mövzuda yazılmış poetik nümunələrin yaxşılarından saymaq fikrindən uzağıq. Lakin bunları Nəcməddin Mürvətovun poeziyasında oxşar tipli şeirlərdən seçilən ədəbi fakt kimi nəzərdən keçirməyin zəruri olduğunu duyduq. Qulaq üşüdən və oxşayan, sinirlərə sığal çəkən fəal, yüksək mənəvi duyğuların təsdiqi, poetik mündəricə Nəcməddin lirikasının başlıca cəhətidir. Torpaq sevgisi, müasirlərinin həyatı, vətənimizin səciyyəvi cəhətlərini əks etdirmək, poetikləşdirmək məharəti və istedadı şeirlərinin başlıca xüsusiyyətləridir. Poeziyasının yönü və yolu zamanın fəlsəfi dərkini axtarmağa doğrudur.

N.Mürvətov bu gün öz yaradıcılıq simasını tam mənası ilə göstərən, təsdiq edən fərdi üslubu, fəlsəfi tutumu, onu başqalarına yaxınlaşdıran və ayıran poetik cəhətləri haqqında çox şey demək mümkündür. Bu poeziya yeni, bütöv axtarışlara möhtacdır.

Xızı dağlarına sığınaraq Xəzəri özünə həmdəm bilən Nəcməddin Mürvətovu – istedadlı şairimizi, mahir pedaqoqu, təşkilatçı rəhbəri, (Prezidentin sərəncamı ilə o, "Əməkdar müəllim" və "Tərəqqi" medalı ilə təltif edilibdir.) vicdanlı vətəndaşı, nümunəvi ailə başçısının 65 illik yubileyi münasibətilə təbrik edir, ömrünün müdriklik çağında ona gümrah cansağlığı və təptəzə şeirlər yazmasını arzulayırıq.



**Baba BABAYEV,**
***filologiya elmləri doktoru***